Avrasya İncelemeleri Dergisi
*Journal of Eurasian Inquiries*

İSTANBUL UNIVERSITY PRESS

Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 9, 2 (2020): 125-139
DOI: 10.26650/jes.2020.010
Araştırma Makalesi / *Research Article*

# Müstəqillik Dövründə Gürcüstanda Milli Dövlət Quruculuğu, İslam Siyasəti Və Regional Əməkdaşlıq

# National State Building, Islamic Policy and Regional Cooperation in Georgia during the Period of Independence

# Post-Sovyet Gürcistan'da Ulus Devlet İnşası, İslam Politikası ve Bölgesel İşbirliği

Ali Asker[1], Tuğba Ünal[2]

[1]**Sorumlu yazar/Corresponding author:** Ali Asker (Dr. Öğretim Üyesi), (Doç. Dr.), Karabük Üniversitesi, İktisadi İdari Bilimler Fakültesi, Uluslararası İlişkiler Bölümü, Karabük, Türkiye.
E-posta: aliasker2068@gmail.com
ORCID: 0000-0003-1801-3371

[2]Tuğba Ünal (Yüksek Lisans Öğrencisi), Karabük Üniversitesi, Lisansüstü Eğitim Enstitüsü Bölge Çalışmaları Anabilim Dalı, Karabük, Türkiye.
E-posta: tugbaunl357@gmail.com
ORCID: 0000-0001-7128-8951

**Başvuru/Submitted:** 27.03.2020
**Kabul/Accepted:** 13.09.2020

**Atıf/Citation:** Asker, Ali ve Unal, Tugba. "Post-Sovyet Gürcistan'da Ulus Devlet İnşası, İslam Politikası ve Bölgesel İşbirliği.", *Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries* 9, 2 (2020): 125-139.
https://doi.org/10.26650/jes.2020.010

**XÜLASƏ**

Müasir dövrdə müstəqilliyini yeni qazanmış ölkələrdə ən önəmli məsələlərdən biri milli dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsidir. Bu prosesin həyata keçirilməsi bilavasitə bir neçə ünsürdən asılıdır. Bunlardan biri vətəndaşların milli kimliklərinin önəmli bir parçasını təşkil edən dini kimlik ünsürüdür. Dövlətlərin həyata keçirdikləri dini və milli (etnik) azlıqlar siyasəti milli dövlət quruculuğunun uğurla davam etdirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Müxtəlif milli, dini və etnik qrupların yaşadığı Gürcüstanda bu siyasətin özünəməxsus problemləri mövcuddur. Azlıqlarla bağlı milli siyasətin insan hüquqları, demokratiya və beynəlxalq hüququn ümumi prinsipləri çərçivəsində həyata keçirilməsi bu problemlərin aradan qaldırılması baxımından vacibdir. Gürcüstanda yaşayan Borçalı türkləri, acarlar, Axısqa türkləri və kistlərdən ibarət müsəlman azlıqlarla bağlı problemlərin uğurlu həlli ölkədəki islam siyasətinin xarakterindən asılıdır.
2011-ci ildən etibarən bir neçə dəfə aparılmış sosioloji sorğu və əldə edilən nəticələr bu məqalənin hazırlanması baxımından çox faydalı olmuşdur. Habelə 2015-2016-cı illərdə çox sayda araşdırmaçının yer aldığı kollektiv sorğu, müşahidə və dərin müsahibələr, habelə, Türkiyədəki elmi araşdırmalar bu məqaləni uğurla tamamlamağa imkan vermişdir.
Məqalədə, yuxarıda bəhs edilən sosioloji sorğu və araşdırmalar zamanı əldə edilən nəticələrdən, habelə regionla bağlı rəsmi mənbələrdə yer alan materiallardan istifadə edilərək mövcud problemlərin həlli məsələsində üçtərəfli əməkdaşlığın roluna diqqət çəkilmişdir.

**Açar sözlər:** Gürcüstan, müsəlman azlıqlar, milli dövlət quruculuğu, üçtərəfli əməkdaşlıq

**ABSTRACT**

One of the most important issues in the countries that have gained independence in the modern period is the successful implementation of the process of national state building. The implementation of this process directly depends on several

This work is licensed under Creative Commons Attribution-NonCommercial 4.0 International License

elements. One of them is the element of religious identity, which is an important part of the national identity of citizens. The policy of religion and national (ethnic) minorities implemented by the states is of great importance in terms of the successful continuation of national state building. In Georgia, where various national, religious and ethnic groups live, this policy has its own problems. The implementation of the national policy on minorities within the framework of the general principles of human rights, democracy and international law is important in terms of eliminating these problems. The successful solution to the problems of Muslim minorities living in Georgia, consisting of Borchali Turks, Ajars, Akhisga Turks and Cysts, depends on the nature of Islamic policy in the country.
The sociological survey conducted several times since 2011 and the results obtained have been very useful in terms of the preparation of this article. As well as a large number of researchers in 2015-2016, surveys, observations and in-depth interviews, as well as scientific research in Turkey have allowed to successfully complete this article. The article draws attention to the role of trilateral cooperation in solving existing problems using the results obtained during the sociological surveys and research mentioned above, as well as the materials in official sources related to the region.
**Keywords:** Georgia, Muslim minorities, national state building, trilateral cooperation

**ÖZ**

Günümüzde bağımsızlığını yeni elde etmiş post-Sovyet ülkelerde en önemli konulardan biri ulus devlet inşası sürecinin başarılı bir şekilde gerçekleştirilmesidir. Bu sürecin hayata geçirilmesi birkaç unsurla doğrudan ilgilidir. Esas unsurlardan biri vatandaşların milli kimliklerinin önemli parçasını teşkil eden dini kimlik unsurudur. Buna yüzden devletlerin uyguladığı dini ve milli (etnik) azınlıklar politikası ulus devlet inşasının başarılı bir şekilde devam ettirilmesi acısından son derece önemlidir. Değişik milli, dini ve etnik grupların yaşadığı Gürcistan'da bu politikanın kendine özgü sorunları vardır. Bunun dışında günümüzde, Gürcistan'da milli ve etnik azınlıklarla ilgili siyasetin insan hakları, demokrasi ve uluslararası hukukun evrensel ilkeleri çerçevesinde yürütülmesi ulus devlet inşası sürecinde karşılaşılan sorunların aşılması bakımından ciddi rol oynayacaktır. Gürcistan'ın Borçalı Türkleri, Acaralar, Ahıska Türkleri ve Kistlerden oluşan Müslüman azınlık sorununun başarılı çözümü bu devletin uyguladığı İslam politikasının karakteriyle bağlantılıdır.
Bu makalede Gürcistan'da 2011 yılından itibaren devam ettirilen şaha gezisi birçok acıdan faydalı olmuştur. 2015-2016 yıllarında çok sayıda araştırmacının yer aldığı kolektif şaha gezisi, gözlem ve derin mülakatların Türkiye'deki ilmi araştırmalara, ayrıca strateji düşünce alanındaki literatüre önemli katkı sağladığı söylenebilir. Bu makalede, yukarıda bahsi geçen saha gezileri ve araştırmalar sırasında elde edilen sonuçların, ayrıca bölgeyle ilgili resmi kaynaklarda yer alan verilerin kullanılması yoluyla cari sorunların çözümünde üç taraflı iş birliğine dikkat çekilmiştir.
**Anahtar kelimeler:** Gürcistan, Müslüman azınlıklar, ulus devlet inşası, üç taraflı iş birliği

## EXTENDED ABSTRACT

Georgia, which was occupied by Russia in the 19th century, existed as an independent republic in 1918-1921, and where the Soviet power was dominant starting from 1921, regained independence in 1991. After regaining independence, one of the most important issues in Georgia has been the issue of national/ethnic and religious minorities. Moreover, the privileges granted to the Georgian Church as well as the violation of the rights of Muslim minorities during this period are seriously criticized.

The most crowded population among the Muslims of Georgia is the Borchaly Turks. According to the argument of the Georgian historians, the Borchaly Turks were supposedly made to migrate to the region by Shah Abbas in the 17th century. This argument is wrong, and the researches confirm that Turks have lived in this region since very ancient times. The region

known as Borchaly was included in the Kvemo Kartli region in line with the administrative region division made in Georgia after independence. In sectarian terms, an important part of the Borchaly Turks is Shia and the rest are Sunni. At present, there is not even one Turkish-Muslim living in Armenia. The fact that Muslim minorities living in Georgia turn to different religious communities and sects reinforces the segregation in society. For example, there is Sunni-Shia segregation among the Borchaly Turks, albeit in small segments. While Salafism spreads strongly in the Kist community, the Salafi/Wahhabi movement may find supporters among the other Muslim groups of Georgia.

Another Muslim group living in Georgia are the Kists. The Kists mostly live in villages in the Pankisi Valley, in the northeast of Georgia, and have a strong traditional community structure. Today, the traditionalist-innovative discussions continue in the Kist community. The traditionalists are members of the Qadiriyya or Naqshbandi sect, which has existed in the Caucasus for a long time. The innovators are those who follow the Salafi/Wahhabi movement. This segregation has shown its effect on the Kist community, caused a serious transformation in the belief-based social structure, and also occasionally brought up the Pankisi Valley to the world agenda in the context of security issues.

The Muslim minority that has the most serious identity problem in Georgia is the Adzhars. The tendency towards Christianization among the Adzhars is on the increase due to pressure or incentive. As a result of the religious policies of the Tbilisi administration following the collapse of the Soviet Union, there has been a substantial decrease in the number of Muslims in Adzharia. At this point, the Muslim Adzhars are a religious minority not only in Georgia but also in Adzharia.

One of the Muslim groups that constitute a minority in number in Georgia is the Meskhetian Turks. The Meskheti region was abandoned to the Russian Empire after the Ottoman-Russian wars, and remained within the Georgian borders during the period of the Soviet Union. In 1944, the Meskhetian Turks were exiled from their ancestral homeland to Central Asia. In 1956-1991, the Meskhetian Turks continued their struggle to return home and their organisation activities. One of the conditions of membership of Georgia to the Council of Europe in 1999 was to ensure the return of the Meskhetian Turks. However, this process failed, and very few Meskhetian Turks migrated to various regions of Georgia.

The issue of Muslim minority is one of the issues that are occasionally added to agenda and discussed in Turkey-Georgia and Azerbaijan-Georgia relations. Unfortunately, though the relations between Turkey and Georgia as well as the ones between Azerbaijan and Georgia have a strategic nature, there are still artificial phobias produced in Georgian society such as "threat of Turkey", "fear of Turk" and "economic expansionism of Azerbaijanis". The false propaganda of certain circles in Georgia and the wrong policies implemented by the Georgian administration on minorities in general play an important role in the emergence of this situation. It is observed that there are some efforts to dissolve these issues through bilateral negotiations (i.e., Turkey-Georgia and Azerbaijan-Georgia). On the other hand, thanks

to the development of trilateral cooperation format which brings together all three states on the same platform today, it will be possible to dissolve the issues in a more optimal and faster way. Further development of the trilateral cooperation format is of great importance for the security, economic and social development of the region. Likewise, the meetings in the form of trilateral cooperation are held, and important documents such as the Trabzon Declaration of 8 June 2012, Batumi Communique of 28 March 2013 and Ganja Declaration of 19 February 2014 were adopted. The last of these meetings was held in Tbilisi on 23 December 2019. In face of the cooperation developed between Russia, Iran and Armenia, and including certain claims and threats against the countries in the region, it is extremely important to strengthen the cooperation line between Turkey, Azerbaijan and Georgia in terms of regional security and development. In line with the common interests of all three states, dissolution of the issues related to minorities, resolution of religious and ethnic disputes and settlement of problems in this area will be able to raise the Turkey-Azerbaijan-Georgia relations to the level of strategic cooperation in the true sense of the word.

## Gürcü dövlətçiliyinin ümumi tarixi inkişaf səciyyəsi kontekstində azlıqlar siyasəti

Tarix boyu Gürcüstan torpaqları Qafqazın digər bölgələri kimi böyük dövlətlərin, imperiyaların və yerli güclərin mübarizə meydanı olmuşdur. Xüsusilə İran və Osmanlı imperiyaları arasında əl dəyişdirən Gürcüstan torpaqları XIX əsrdən etibarən regionda hegemoniya qurmağa çalışan Rusiya imperiyasının həyata keçirdiyi işğal siyasətiylə qarşı qarşıya qalmışdır. Bu dövrdə Osmanlı və İran imperiyalarının zəifləməsi, bunun əksinə Rusiya imperiyasının güclənməsi və müxtəlif istiqamətlərdə sürətlə irəliləməsi Gürcüstanın və Cənubi Qafqazın digər bölgələrinin işğalını gücləndirmişdir. Beləliklə XIX əsrin əvvəllərindən başlayan işğal prosesi Cənubi Qafqaz regionunun tamamilə Rusiyanın əlinə keçməsilə nəticələnmişdir. Rusiyada çar mütləqiyyətinin süqutu və Oktyabr çevrilişi XX əsrin əvvəllərinə qədər Rusiyanın işğalı altında qalan Gürcüstanın taleyində mühüm rol oynamışdır. Bu tarixi proseslər gürcülərin milli dövlət quruculuğunun yolunu açmış və 26 may 1918-ci ildə Gürcüstanın müstəqilliyinin elan edilməsi ilə nəticələnmişdir. Gürcüstan Demokratik Cümhuriyyəti qısa da olsa öz müstəqilliyini qoruya bilmiş və 1921-ci ildə bolşevik Rusiyasının hərbi müdaxiləsi nəticəsində süqut etmişdir. Bundan sonrakı dövrdə respublika statusu formal şəkildə davam etmiş və Gürcüstan Respublikası əvvəl Zaqafqaziya Sovet Federativ Respublikasının (1922-1936), 1936-cı ildən isə müttəfiq respublika kimi SSRİ-nin tərkibində öz mövcudiyyətini davam etdirmişdir. Bu dövrdə SSRİ-ni təşkil edən və tamamilə Rusiyanın hegemoniyası altında olan müttəfiq respublikaların həqiqi mənada müstəqil dövlət statusundan məhrum olduqlarını xüsuslə qeyd etmək lazımdır. 1980-ci illərin ortalarından etibarən M.S. Qorbaçovun rəhbərliyi altında həyata keçirilən yenidənqurma və şəffaflıq siyasəti bir müddət sonra Sovet İttifaqının bir çox bölgəsində xaos və anarxiya mühitinin meydana gəlməsinə səbəb olmuşdur. Ümumiyyətlə, bu siyasət Sovet İttifaqının mövcudiyyətini qoruyan əsas prinsiplərlə ziddiyyət təşkil etdiyi üçün hadisələrin bu şəkildə cərəyan etməsi təbii idi. Digər tərəfdən bolşevik hakimiyyətindən miras qalan “parçala və hökm sür” siyasətinin doğurduğu və uzun müddət totalitar sovet sistemi tərəfindən üstü örtülü tutulan milli-etnik və ərazi mübahisələri yenidən zühur etdi. Bütün bu hadisələr SSRİ-nin dağılma prosesini sürətləndirdi. Onu da qeyd etmək lazımdır ki, Gürcüstan Respublikası o dövrdə Sovet İttifaqından ayrılma siyasətini müdafiə edən və bu hərəkatın ön sırasında yer alan müttəfiq respublikalardan idi. 1991-ci ildə müstəqilliyinə qovuşan Gürcüstan digər respublikalarda olduğu kimi ciddi problemlərlə üzləşdi. Xüsusilə yeni dövlət quruculuğu prosesində qarşılaşdığı iqtisadi-sosial çətinliklər, anarxiya, xaos, digər tərəfdən isə milli, dini, etnik məsələlərlə bağlı problemlər Gürcüstanın milli dövlət quruculuğuna mane olan bir çox problemi də bərabərində gətirmişdir. Belə ki, müstəqilliyinə qovuşan Gürcüstan eyni zamanda Abxaziya və Cənubi Osetiya bölgələrini itirmiş oldu. Digər tərəfdən o dövrdə ölkədaxili ziddiyyətləri dərinləşdirən səbəblərdən biri də Gürcüstan rəhbərliyinin insan hüquqlarını heçə sayan, “qonaq” və “müvəqqəti sakinlər” adlandırdığı milli və etnik azlıqlara qarşı təzyiq və hətta “təmizləmə” siyasətinin həyata keçirilməsi olmuşdur. Bütün bu hadisələr müstəqillik əldə

etdikdən sonra Gürcüstanda qanlı hadisələrin, anarxiya və xaosun yaşanması ilə nəticələnmişdir.

Milli, etnik və dini azlıqlar məsələsi SSRİ-nin dağılmasından sonra Gürcüstanın üzləşdiyi ən kövrək problemlərdən biri kimi aktualdır. Çünki bəhs edilən problemlər bu gün də davam edir. Dini azlıqlar kimi Gürcüstan müsəlmanlarının hüquq və azadlıqlarının qorunması istiqamətində aparılan mövcud siyasət bu məsələdə hökumətin səmimi davranmadığına dair şübhələri daha da dərinləşdirməkdədir. Dini azlıqlarla bağlı digər bir problem Gürcü Pravoslav Kilsəsinin rolu ilə bağlıdır. Məlum olduğu kimi, müstəqillik ərəfəsində Gürcüstanda kilsənin rolu xeyli artmış, pravoslavlıq məzhəbi özünü gürcü kimliyinin ayrılmaz bir parçası kimi təsdiq etdirmişdir. Kilsəyə verilmiş imtiyazlar dünyəvi dövlət prinsipinin açıq şəkildə pozulmasına, bir dinin digər din və ya məzhəblərə qarşı dövlət tərəfindən üstünlüyünün təmin edilməsinə səbəb olmuşdur.

Bir çox keçmiş sovet ölkəsində olduğu kimi Gürcüstanda da milli dövlət quruculuğu titulyar qrup əsasında aparılmaqda olub, millət inşası prosesində ölkədə yaşayan azlıqların mənafeləri nəzərə alınmamaqdadır.

Gürcüstan Respublikası müstəqillik əldə etdikdən sonra azlıqların hüquqlarına dair bir çox beynəlxalq sənədə imza atmış və beynəlxalq öhdəliklər qəbul etmişdir. 2011-ci ildə Ümumi Gürcüstan Müsəlmanları İdarəsini, 2014-cü ildə Din İşləri üzrə Dövlət Agentliyini quran Gürcüstan hakimiyyəti dini qruplara nəzarət etməyə və onları xarici təsirlərdən uzaq tutmağa çalışır.

## Müsəlman azlıqların demoqrafik və sosial xarakteristikası

Gürcüstanın müsəlman azlıqları arasında say baxımından üstünlük təşkil edən qrup "Borçalı türkləri" və ya Azərbaycanda adlandırıldığı kimi "Gürcüstan azərbaycanlıları"dır. Bu qrupun məzhəb baxımından əksəriyyəti şiə, qalan hissəsi isə sünnidir.

Borçalı bölgəsində tarix boyu müxtəlif türk tayfaları yaşamış və bu tayfalar bir-biri ilə qaynayıb qarışmışlar. Gürcü tarixşünaslığında Borçalı türklərinin bölgəyə intensiv olaraq XVII əsrdə Şah Abbas tərəfindən köçürüldüyü fikri hakimdir. Halbuki tarixi mənbələr türklərin bu bölgədə qədim dövrlərdən başlayaraq yaşadığını, bu torpaqların bir türk yurdu olduğunu göstərməkdədir. SSRİ dağıldıqdan sonra Gürcüstan hakimiyyəti böyük idarəetmə vahidləri təsis edərkən azlıqların kompakt yaşadıqları əraziləri bu vahidlərin tərkibinə daxil etmiş, beləliklə, heç bir bölgədə azlıqların "çoxluq" təşkil etməsinə yol verməmişdir. Tarix boyu Borçalı adı ilə tanınan və türklərin yaşadıqları rayonlar Kvemo-Kartli bölgəsinə daxil edilmişdir. Onu da qeyd edək ki, Borçalı ərazisinin bir hissəsi bugünkü Ermənistan ərazisində qalmış və bu bölgədə yaşayan türk-müsəlman əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirilmişdir. Hal hazırda Ermənistanda bir nəfər də olsun türk-müsəlman yaşamır.

Borçalı türklərinin sayı ilə bağlı rəsmi və qeyri-rəsmi göstəricilər arasında böyük fərq vardır.[1] 2014-cü ildə aparılmış siyahıyaalma nəticələrinə görə Kvemo Kartli əhalisinin ümumi sayı

1 Ali Asker, Özge Nur Öğütcü, Borçalı Türkleri: İslam, Mezhep ve Din Temelli Sorunlar, *Gürcistan'da Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Ed. Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), Avrasya İncelemeleri Merkezi, Ankara 2016, ss. 219-244,

423 min 986 nəfər olmuşdur. Bunun tərkibində gürcülər 249 min 479, Borçalı türkləri 177 min 032, ermənilər 21 min 500, ruslar isə 2 min 631 nəfər təşkil edir. Həmçinin regionda osetinlər (810), yezidi kürdləri (305), ukraynalılar (510), kistlər (25) və digər xalqların nümayəndələri yaşayır. Borçalı türklərinin ən çox yaşadıqları yer Marneuli rayonudur. 2014-cü idə aparılmış siyahıyaalma nəticələrinə görə,[2] Gürcüstandakı Borçalı türklərinin sayı 233.024 nəfərdir və bu rəqəm ölkə əhalisinin 6.27%-ini təşkil edir. Regionlar üzrə baxdığımızda Borçalı türklərinin ən sıx yaşadıqları inzibati ərazilər Kvemo-Kartli (177.032 (41.75%)) və Kaxetiyadır (32 min 354 (10.16%)). Bundan əlavə Msxeta-Mtianetidə 2 min 316, (2.45%), Şida Kartlidə 5 min 501 (2.09%) Tbilisidə 15 min 187 (1.37%) Borçalı türkü yaşayır. Digər bölgələrdə yaşayan Borçalı türklərinin sayı mindən azdır[3].

Gürcüstandakı türk-müsəlmanların dini idarəsi ilə əlaqədar normativ tənzimləmələr XIX əsrin əvvəllərindən etibarən həyata keçirilməyə başlanmışdır. 1823-cü ildə Tiflisdə şiələri təmsil edən şeyxlik, daha sonra 1832-ci ildə sünni müsəlmanları təmsil edən müftilik qurumu təsis edilmişdir. 1872-ci ildə şeyxlik və müftilik qurumları birləşdirilərək rəsmi idarəyə çevrilmişdir.[4] 1918-ci ildə Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra dini idarə yenidən formalaşdırılmışdır. Azərbaycan müstəqilliyini elan etdiyində müsəlman ruhani idarələri Tiflisdə yerləşirdi. Hər iki idarə Gəncə şəhərinə daşındıqdan sonra öz iradələri ilə 1 sentyabr 1918-ci ildə Məşixati-İslamiyyə adlı vahid qurum şəklində birləşmişdir.[5] Sovet dövründə 1944-cü ildə Bakıda həm şiələri, həm də sünniləri təmsil edəcək Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi təsis edilmişdir. 2011-ci ildə Ümumi Gürcüstan Müsəlmanları İdarəsi qurulana qədər Gürcüstan müsəlmanları Bakıya bağlı idilər.[6] 2014-cü ilin yanvar ayından etibarən ölkədə sünniləri təmsil edən müftilər Şərq və Qərb müftiləri adlandırılmağa başlanmışdır. Gürcüstanda sünnilərin iki müfti ilə təmsil edilməsini camaatın bölünməsi kimi qiymətləndirərək bu dəyişikliyi tənqid edənlər, bununla yanaşı bu dəyişikliyin zəruri olduğunu müdafiə edənlər də vardır.[7]

Gürcüstandakı müsəlman icmaları arasında özünəməxsus problemləri olan dini azlıq Acarıstan müsəlmanlarıdır. Qeyd edək ki, Osmanlı dövründə Acarıstan əhalisinin müsəlmanlaşması bir neçə əsr davam etmişdir. Rusiya və sovet mənbələrində iddia edilənin əksinə, bu proses

2 Bu nəticələr 2016-cı il tarixində rəsmən elan edilmişdir.

3 Asker, Öğütcü, s. 222.

4 Rusiya imperiyasında və habelə Qafqazda müsəlmanların idarə olunması məqsədi ilə formalaşdırılmış dini idarələr, habelə bu idarələrə təyinatlar müxtəlif dövrlərdə müxtəlif şəkillərdə həyata keçirilmişdir.

5 Ceyhun Məmmədov, Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri, *Dövlət və Din*, № 04 (51) iyul - avqust 2017, (ss. 6-15), s. 11; A. İsgəndərov, A. Mövlayi, *Şeyxülislamın tarixi,* "Elm və təhsil", Bakı 2016, s. 187.

6 Ali Asker, Gürcistan'da Din-Devlet İlişkilerinde Yeni Yasal Düzenleme. 21.Yüzyıl. Eylül, 2011, No. 33, (ss. 66-72); Conor Prasad. Georgia's Muslim Community: A Self-Fulfilling Prophecy? *ECMI Working Paper*. No. 58, 2012; Rashad Huseynov, History and Evolution of Islamic Institutions in Azerbaijan (XIX-XXI. Centuries). *The Caucasus - Globalization Journal of Social, Political and Economic Studies.* Vol. 8, Issue 1-2, 2014 (pp. 1-11).

7 Alter Kahraman, Yury Katliarou, Özge Anaç, Müslüman Acarlılar: İslam, Din Değiştirme ve Dini Haklar, *Gürcistan'da Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Ed. Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), Avrasya İncelemeleri Merkezi, Ankara 2016 (ss.159-1992), s. 174.

zorakılıqla deyil, müxtəlif təşviq, vergi, torpaq ərazilərinin istifadəyə verilməsi kimi yollarla və tədricən həyata keçirilmişdir. Osmanlı dövlətinə sadiq olan yerli ağalara və bəylərə xalqın idarə edilməsi sahəsində geniş səlahiyyətlər verilmişdi.[8] Uzun müddət bu bölgəni ələ keçirmək uğrunda Rusiya və Osmanlı dövlətləri arasında şiddətli rəqabət olmuş, nəticədə sovet hakimiyyəti dövrünün əvvəllərində Acarıstan muxtar bölgə kimi Gürcüstanın tərkibinə daxil edilmişdir. 2014-cü ildə aparılmış siyahıyaalmanın nəticələrinə görə Acarıstan əhalisi 333 min 953 nəfər olub Gürcüstanın ümumi əhalisinin 9%-ini təşkil etmişdir[9].

Gürcüstanda yaşayan başqa bir müsəlman azlıq qrupunu kistlər təşkil edir[10]. Kistlər çeçen və inquşlar kimi Qafqazın vaynax xalqları qrupuna daxildirlər. 2014-cü ildə aparılan siyahıyaalmanın nəticələrinə görə, Gürcüstanda yaşayan kistlərin ümumi sayı 5 min 697 nəfərdir. Bunun 5 min 581 nəfəri Kaxetiya bölgəsində yaşayır.[11] Müsəlman kistlərin dini kimliklərinin şəkillənməsində iki önəmli şəxsiyyətin rolundan bəhs edilir. Bunlardan biri sufiliyin nəqşibəndi qolundan İsa Əfəndi, digəri isə qadirilik qolundan Kunta Hacı olmuşdur. Nəqşibəndilik Pankisiyə 1909-cu ildə İsa Əfəndinin Dusi kəndinə gəlişindən sonra yayılmışdır. Qadirilik isə 1927-ci ildə Kunta Hacının müridlərindən olan Şeyx Oda vasitəsilə bu bölgədə yayılmışdır.[12]

Kistlər güclü ənənəvi icma strukturuna malik xalqdır. Qafqazda yaşayan məzhəb və təriqətlər baxımından ayrılan ənənəçi-yenilikçi (təriqətçilər-sələfilər/vəhhabilər) ziddiyyətinin kistlər üzərində təsiri böyükdür. Bu təsir özünü sadəcə dini inanc baxımından göstərməmiş, eyni zamanda onların yaşadıqları Pankisi vadisinin adını təhlükəsizlik problemləri ilə bağlı dünya gündəminə çıxarmışdır. Pankisi vadisi sakinlərinin dini həyatında nəqşibəndilik və qadirilik təriqətləri tarix boyu güclü olmuşdur. Lakin SSRİ-nin dağılmasından sonra Qafqaz regionunda radikal cərəyanları təmsil edən sələfilik/vəhhabiliyin təsiri hər keçən gün artmışdır. Xüsusilə çeçenlər arasında şiddətlənən təriqətci-sələfi münaqişəsi, habelə Rusiya-Çeçenistan müharibəsi nəticəsində radikal cərəyanların toplana biləcəyi ən əlverişli bölgə Pankisi vadisi olmuşdur. Bu hadisələr kist icmasının tədricən sələfilik ideologiyasının təsiri altına düşməsinə yol açmışdır.

Gürcüstanın say etibarı ilə azlıq təşkil edən xalqlarından biri də Axısqa türkləridir. Bir zamanlar Osmanlı imperiyasına aid olan bu bölgə Rusiya-Osmanlı müharibələri nəticəsində Rusiyanın hakimiyyəti altına keçmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra Axısqa bölgəsi Gürcüstan sərhədləri daxilində qalmışdır. Axısqa türklərinin yaşadığı ən böyük faciə onların 1944-cü ildə doğma yurdlarından sürgün edilməsi olmuşdur. Həmin tarixdə doxsan min

8 Asker Ali, Alter Kahraman, Gürcistan'da Devletleşme, Kimlik İnşası ve Müslüman Topluluklar. İçinde: *Gürcistan'daki Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Editörler: Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), AVİM Yay., Terazi Yayıncılık, Ankara 2016 (ss. 23-47), s. 32-33.

9 National Statistics Office of Georgia "2014 General Population Census-Population by Regions and Religion". http://www.census.ge/en/results/census (Baxıldığı tarix: 20.05.2016).

10 Kistlər barədə ətraflı məlumat üçün baxın: Ayşegül Aydıngün, Ali Asker, Anıl Üner. Pankisi Vadisi'nde Kistler: Selefilik, Gelenekçilik, Kimlik ve Siyaset, *Gürcistan'da Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Ed. Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), Avrasya İncelemeleri Merkezi, Ankara 2016 (ss. 347-370).

11 Bax: National Statistics Office of Georgia "2014 General Population Census- Population by Regions and Ethnicity". http://www.census.ge/en/results/census (Erişim Tarihi: 20.05.2016).

12 Aydıngün, Asker, Üner, s. 353.

axısqalı (türk, kürd və həmşin) Orta Asiyaya sürgün edilmişdir. Sürgünə məruz qalmış digər xalqlar Stalinin ölümündən sonra bəraət alaraq öz torpaqlarına geri dönsələr də, axısqalılara, eyni zamanda Krım tatarlarına belə bir hüquq tanınmamışdır. Buna görə də sovet dövründə axısqalıların öz vətənlərinə geri dönmələri üçün göstərdikləri cəhdlər müsbət nəticə verməmiş, bu proses hər vasitə ilə əngəllənmişdir. 1999-cu ildə Gürcüstanın Avropa Şurasına üzvlüyünə qəbul edilməsi axısqalıların geri dönüşlə bağlı ümidlərini artırsa da, bundan sonrakı dövrdə də axısqalıların vətənə geri dönmələrinə mane olan əngəllər aradan qaldırılmamışdır. Nəticədə çox məhdud sayda Axısqa türkü sadəcə kiçik qruplarla Gürcüstanda yerləşə bilmişdir.

## Radikalizm, ənənəvi islam və dövlət təhlükəsizliyi

Gürcüstanda yaşayan müsəlman azlıqların dini camaatlar və məzhəblərlə bağlı mövqeyi, müxtəlif cərəyanlara yönəlmələri, dövlət və dini azlıqlar arasındakı münasibətlər yeknəsəq olmayıb, qrupdan qrupa dəyişməkdədir. Məzhəb və camaatlar baxımından bu qrupların öz içlərində də müxtəliflik olduğunu, hətta onlar arasında müəyyən mənada ziddiyyətlərin yarandığını deyə bilərik. Bu gün Borçalı türkləri arasında kiçik kəsimlərdə də olsa bəzi məzhəb ziddiyyətləri mövcuddur. Bu ziddiyyətlər tarixi hadisələrin inkişafı ilə bağlı fərqli məzhəb qrupları arasındakı yaşanmış hadisələrdən irəli gəlir.

Məlum olduğu kimi, sovet dövründə din-dövlət münasibətlərinin xarakteri dinin, eyni zamanda məzhəblərin ictimai statusunun önə çıxmasına mane olurdu. Müstəqillik dövründə yaşanan dini dirçəliş prosesində tarix boyunca bir-birinə rəqib olmuş iki əsas güc olan Türkiyə və İran mənşəli dini təbliğat (və ya dəvət) fəaliyyətlərini artırmışlar. Bundan başqa, Səudiyyə Ərəbistanından gələn sələfi cərəyanlar da hərəkətə keçmiş və Gürcüstandakı sünni müsəlmanları təsir altına almaq üçün intensiv fəaliyyətə başlamışlar. Ölkədəki ağır sosial və iqtisadi şəraitdə müxtəlif mənşəli xeyriyyə fondları və cəmiyyətlərin Qafqaz regionundakı açıq və ya gizli fəaliyyətləri nəticəsində bu proseslər daha da sürətlənmişdir.

Hal hazırda bölgədə yaşayan sünni müsəlmanlara Türkiyə mənşəli camaatlar tərəfindən, şiə müsəlmanlara isə İran tərəfindən dəstək verilməkdədir. Bu vəziyyət Borçalı bölgəsində yaşayan yerli müsəlman əhali arasında narahatlıq yaradır. Başlanğıcda saf hisslərlə dini camaatlara daxil olan yerli müsəlmanlar zaman keçdikcə mənsub olduqları qrupların fərqini daha yaxından hiss etməyə, qarşı qruplardan ayrı olduqlarını qəbul etməyə, bu vəziyyətə təfriqə deyil, təbii fərqlilik kimi baxmağa başlamışlar. Bu şəxslərin nəzərində başqa inanclar batil və hətta bəzən küfrdür. Beləliklə, dini inanclara bağlı olaraq meydana gələn bu ixtilaf cəmiyyətdəki milli birlik və bərabərlik ruhunu aşındırmaqda və neqativ nəticələr doğurmaqdadır. Sayı az olsa da, sələfi/vəhhabi cərəyanına mənsub kəsimin sərt mövqeyə sahib olduğunu və öz təsirini daha açıq şəkildə göstərdiyini demək mümkündür.[13]

Sələfilik/vəhhabilik cərəyanının təsiri kistlər arasında güclü şəkildə müşahidə edilməkdədir. Belə bir anlayışın kist icmasında yerləşməsində Çeçenistan müharibələrinin böyük təsiri olmuşdur.

13 Asker, Öğütcü. s. 227.

Cihad adı ilə bölgəyə gəlmiş ərəb mənşəli qruplar (xarici döyüşçülər) gəldikləri ilk gündən öz təsirini kisr icması üzərində göstərməyə başlamışdır. Sonrakı dövrdə Çeçenistanda vəhhabi cərəyanının gücü qırılsa da Pankisi vadisində sələfi cərəyanı sürətlə yayılaraq təriqətçilərin ictimai əsaslarını sarsıtmışdır. Xüsusilə qeyd etmək lazımdır ki, Pankisi vadisindəki əhalinin əksəriyyəti sələfiliyi radikal hərəkat kimi deyil, bir inanc sistemi kimi qəbul etməkdədir. Ənənəvi ictimai struktura sahib olan kist icması sələfiliyi özlərinin yerli adət-ənənələrinə uyğunlaşdırmağa çalışaraq ona ərəb sələfiliyindən fərqli xarakter qazandırmağa çalışmışdır. Bölgədə aparılan sahə araşdırmalarında kistlərin təxminən yetmiş faizinin sələfiliyi mənimsədiyi, bunlardan sadəcə on faizinin ərəb sələfiliyinin yolundan getdiyi müşahidə edilmişdir[14]. Radikal sələfi/vəhhabi qrupların Yaxın Şərqdə, xüsusilə Suriyada yaşanan hadisələrə "biganə qalmaması" bölgə xalqına yönəlik şübhələri körükləmiş, kistlərlə bağlı mənfi imic yaranmasına səbəb olmuşdur. Bu vəziyyət hətta Rusiyanın Gürcüstana qarşı irəli sürdüyü ittihamları, Pankisi vadisində Rusiyaya qarşı terrorçu qruplaşmaların olduğuna və Gürcüstan dövlətinin bu qruplara şərait yaratdığına dair iddiaların artmasına səbəb olmuşdur. Halbuki, kistlər arasında aparılan sorğuda Suriyadakı vətəndaş müharibəsində iştirak etmənin dini baxımdan vacib olmadığı, İŞİD sıralarında yer almanın səhv olduğu vrugulanmış, hətta İŞİD-in "qlobal fitnə" olduğu ifadə edilmişdir.

Təhlükəsizlik baxımından diqqət çəkən başqa bir problem də Axısqa türklərinin doğma yurdlarına geri dönmə məsələsidir. Məlum olduğu kimi, axısqalıların sürgündən əvvəl yaşadıqları ata-baba yurdlarında bu gün ermənilər yaşayır. Bu məsələ ilə bağlı gürcü elitləri tərəfindən irəli sürülən "erməni amili" (yanlış və ya doğru olsa belə) axısqalıların geri dönmələrinə mane olur.[15] Həm Gürcüstanın, həm də Ermənistanın hakim dairələri, habelə o bölgədə yaşayan gürcü və ermənilər axısqalıların geri dönüşünü mümkün hesab etmirlər.[16] Axısqa türklərinin vətənə geri dönüşü Gürcüstanın öz iradəsi ilə, yəni könüllü olaraq deyil, beynəlxalq təşkilatların təzyiqi ilə başladılməş və bu günə qədər həyata keçirilməmişdir. Bu prosesin önündəki ən böyük əngəl isə Gürcüstan hakimiyyətinin apardığı siyasətdir. Bundan başqa, Gürcüstanın sosial və iqtisadi problemləri, dünyanın dörd bir tərəfinə səpələnmiş Axısqa türklərinin kifayət qədər təşkilatlanmamaları, geri dönüşlə bağlı hüquqi prosedurlarda real şərtlərin nəzərə alınmaması və geri dönmək istəyənləri bezdirmək üçün süni maneələr yaradılması, axısqalıların haqlı olaraq özlərinə ən yaxın gördükləri Türkiyəyə köçməyə üstünlük vermək istəmələri və digər amillər vətənə geri dönüş prosesinə mənfi təsir göstərmişdir.

Gürcüstanın ən çox kimlik problemi yaşayan müsəlman azlığı acarlardır. Sovet dövründə bu bölgədəki əhalinin əksəriyyəti müsəlmanlardan ibarət idi. Mitropolit Dimitriyə görə,

14 Aydıngün, Asker, Üner, s. 358.

15 Yuliya Bilestka, Turgut Kerem Tuncel, Ahıska Türklerinin Gürcistan'a Geri Dönüşü ve 'Ermeni Faktörü' , *Gürcistan'da Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Ed. Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), Avrasya İncelemeleri Merkezi, Ankara 2016 (ss. 319-346), s. 320.

16 Bilestka, Tuncel, s. 341.

1986-cı ildə Acarıstan əhalisinin 75%-i müsəlman idi[17]. Sovet sistemi dağıldıqdan sonra Tbilisi hakimiyyətinin din siyasəti nəticəsində Acarıstandakı müsəlmanların nisbətində ciddi azalma yaşanmışdır. Təkcə 13 may 1991-ci il tarixində Batumidə 5 min müsəlman vəftiz (xaç suyuna salınmaq) edilmişdir. Bu cür mərasimlər indi də davam etməkdədir. 2014-cü ilin göstəricilərinə görə Acarıstandakı müsəlmanların sayı 132 min 852 nəfər (% 39.78) olmuşdur. Sahədə aparılan araşdırmalar zamanı müsəlmanlara aid dini qurumun mənsublarından biri hal-hazırda Acarıstanda əhalinin sadəcə 20 faizinin müsəlman olduğunu ifadə etmişdir. Bu gün acarlar yaşadıqları muxtar respublikada azlıq vəziyyətinə düşmüşlər. Müsəlman acarların əksəriyyəti muxtar respublikanın şərqində yer alan və Yuxarı Acarıstan kimi tanınan dağlıq bölgədə yaşayır. Yuxarı Acarıstandakı Xulo qəsəbəsi və ətrafındakı kəndlər yerli müsəlmanların mərkəzi kimi tanınır.[18]

Acarıstan müsəlmanlarının problemləri Gürcüstan-Türkiyə münasibətləri baxımından da aktualdır. Bölgədəki müsəlmanların hüquq və azadlıqları ilə bağlı problemlər vaxtaşırı olaraq iki ölkə arasındakı münasibətlərdə özünü göstərir. Təəssüf ki, Türkiyə və Gürcüstan arasındakı münasibətlər, strateji müttəfiqlik səviyyəsində olmasına baxmayaraq, hələ də gürcü cəmiyyətində “Türkiyə təhdidi” və ya “türk qorxusu” davam etməkdədir. Bu “qorxu”dan ən çox zərər görənlər isə müsəlman acarlardır.

## Üçtərəfli əməkdaşlığın inkişaf etdirilməsinin önəmi

Müsəlman azlıqlar problemi Türkiyə-Azərbaycan-Gürcüstan arasındakı üçtərəfli münasibətlərə mənfi təsir göstərməkdə və müəyyən problemlər doğrumaqdadır. Bu problemlər dövlətlər arasındakı səmimi münasibətlərə kölgə düşürməklə qalmayıb, regional əməkdaşlıq və strateji müttəfiqlik əlaqələrinin inkişafına mane olur. Halbuki üçtərəfli əməkdaşlıq çərçivəsində Türkiyə, Azərbaycan və Gürcüstan arasındakı münasibətlərin daha yüksək səviyyəyə çatdırılması istiqamətində önəmli işlər görülür. Beynəlxalq aləmdə meydana gələn sürətli və intensiv dəyişmələr, xüsusilə Türkiyənin xarici siyasətini məşğul edən problemlər üçtərəfli əməkdaşlıq formatının inkişaf etdirilməsinə kifayət qədər zaman və diqqət ayırmağa mane olur. Son iyirmi ildə regionda yaşanan proseslər Rusiya-İran-Ermənistan əməkdaşlıq xəttinə qarşı Türkiyə-Azərbaycan-Gürcüstan xəttinin gücləndirilməsinin nə qədər vacib olduğunu bariz şəkildə ortaya qoymaqdadır.

SSRİ-nin dağıldıqdan sonra Türkiyənin Azərbaycan, Gürcüstan və Ermənistanla bağlı mövqeyi hər üç dövlətlə siyasi, iqtisadi və mədəni əlaqələr qurmaq və əmakdaşlığı gücləndirmək, regional sülh və mehriban qonşuluq mühiti yaratmaq idi. Lakin müstəqilliyə addım atdığı ilk gündən Türkiyəyə qarşı ərazi və soyqırım iddiaları irəli sürən Ermənistan özünü regional əməkdaşlıq layihələrindən təcrid etmişdir. Zaman keçdikcə Cənubi Qafqaz ölkələrinin regional

17 Митрополит Батумский Димитрий – о чуде в Аджарии, мусульманах и Патриархе Илии, http://www.pravmir.ru/mitropolit-batumskij-i-lazskij-dimitrij-adzhariya-vernulas-k-istokam/, 06.12.2012, (Eriıoim Tarihi: 20.05.2017).

18 Kahraman, Katliarou, Anaç, s. 160.

siyasətinin iki müxtəlif istiqamətdə inkişaf etdiyi daha bariz şəkildə hiss edilməyə başlamışdır. Türkiyə-Azərbaycan, Türkiyə-Gürcüstan, Azərbaycan-Gürcüstan iki tərəfli əlaqələrinin inkişafı üç tərəfli layihələrin ortaya çıxması və bu sahədə əməkdaşlığın inkişaf etdirilməsinə güclü təkan vermişdir. Ermənistan isə öz inkişaf istiqamətini əsasən Rusiya və müəyyən qədər də İrana yönəltmişdir. 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsindən sonra Gürcüstan qəti qərar qəbul edərək Müstəqil Dövlətlər Birliyindən ayrılmışdır. Bundan başqa, həm Azərbaycan həm də Gürcüstan MDB-nin hərbi strukturu kimi nəzərdə tutulan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzvlüyünü qəbul etməmişdir. Ermənistan isə bu strukturun regionda "ən fəal üzvü" kimi çıxış etməyə başlamışdır. Bundan başqa, 2014-cü il oktyabrın 9-da Ermənistan Respublikası Belarus, Qazaxıstan və Rusiya tərəfindən imzalanmış müqavilə ilə qurulan (29 may 2014-cü ildə), siyasi və iqtisadi təşkilat olan Avrasiya İqtisadi Birliyi üzvlüyünə qəbul edilmişdir. Həm Gürcüstan, həm də Azərbaycan bu ittifaqa qoşulmamağı məqsədəuyğun hesab etmişdir.[19] Beləliklə, SSRİ-nin dağılmasından sonra meydana gələn regional sistemdə Ermənistan Rusiyanın bütün geopolitik, siyasi və iqtisadi layihələrinə böyük həvəslə qoşulmuşdur.[20]

Türkiyə-Azərbaycan-Gürcüstan üçtərəfli əməkdaşlıq formatının təkmilləşdirilməsi regionda təhlükəsizlik və iqtisadi inkişaf baxımından vacib əhəmiyyət kəsb edir. Son dövrdə üç ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin möhkəmləndirilməsi və lazımi hüquqi bazanın yaradılması baxımından önəmli sənədlər qəbul edilmişdir. 8 iyun 2012 tarixli Trabzon Bəyannaməsi, 28 mart 2013 tarixli Batumi Birgə Kommünikesi xarici işlər nazirləri səviyyəsində imzalanmışdır. 19 fevral 2014 tarixində Gəncə şəhərində xarici işlər nazirlərinin zirvə görüşündə "2013-2015-ci illər üzrə üçtərəfli sahəvi əməkdaşlığa dair Fəaliyyət Planı"nda yeni əməkdaşlıq mexanizmlərinin həyata keçirilməsinin vacibliyi qeyd edilmişdir. 10 dekabr 2014-cü ildə Qarsda imzalanan bəyannamədə hər üç dövlət daha öncə nümayiş etdirdikləri müttəfiqlik iradəsini bir daha bəyan etmişlər. Bundan sonra 9 fevral 2016-cı ildə Tbilisidə beşinci, 6 sentyabr 2017-ci ildə Bakıda altıncı, 29 oktyabr 2018-ci ildə İstanbulda yeddinci üçtərəfli görüşlər keçirilmişdir.

Səkkizinci üçtərəfli görüş 23 dekabr 2019-cu il tarixində Tbilisidə keçirilmişdir. Bu görüşdə həm siyasi dialoq, həm də spesifik üçtərəfli layihələrin icrası üçün vacib platforma kimi Trabzon Bəyannaməsi, Batumi Birgə Kommünikesi, Gəncə, Qars, Tbilisi, Bakı və İstanbul bəyannamələrindəki öhdəliklərin əhəmiyyətindən bəhs edilmişdir. Qəbul edilən bəyanatda enerji, nəqliyyat, müdafiə, ekoloji tarazlıq, innovasiya və texnologiya və s. məsələlər barədə üç ölkə arasında həyata keçirilən layihələrin əhəmiyyəti bir daha vurğulanmışdır. Ortaq bəyannamədə qeyd edildiyi kimi, əməkdaşlıq edən ölkələr "terrorizmin, zorakı ekstremizmin və separatizmin bütün növlərinə və təzahürlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə, silahlara, insan alverinə, mədəni və

19 Bax: Mitat Çelikpala, Cavid Veliyev. Azerbaycan-Gürcistan-Türkiye. Bölgesel İşbirliğinin Başarılı Örneği, Polisy Brief, Center for International and European Studies (CIES) , Mart 2015.

20 Ali Asker, Çoxtərəfli əməkdaşlıq prizmasından Türkiyənin Cənubi Qafqaz siyasəti, *Qafqazşünasların Birinci Beynəlxalq Forumu* [17-18 aprel 2017: Bakı], Azərbaycan MEA Qafqazşünaslıq İnstitutu, Bakı 2017 (ss. 212-218), s. 215.

tarixi irsə qarşı cinayətlərə, çirkli pulların yuyulmasına, kibercinayətkarlığa, dezinformasiya kampaniyalara, miqrant qaçaqmalçılığına və digər transmilli təhdidlərə qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsinə qəti sadiq olduqlarını" bir daha ifadə etmişlər.[21]

Zirvədə eyni zamanda etnik və dini tolerantlıqla bağlı müddəalar öz əksini tapmışdır. Bəyanatda deyilir:

> "Hər üç ölkənin xalqları arasında əlaqələrə töhfə verəcək humanitar sahədə əməkdaşlığın, o cümlədən mədəniyyət, təhsil, səhiyyə, gənclərin mübadiləsi, turizm və idman sahələrində əməkdaşlığın əhəmiyyətini qeyd etdilər və bu sahələr üzrə birgə layihələrin və tədbirlərin irəli sürülməsinə və təşviq olunmasına hazır olduqlarını ifadə etdilər; Bölgədə etnik və dini tolerantlıq irsini əks etdirən mədəni irsin qorunması üçün aidiyyəti qurumların səylərini artırmaq üçün üç ölkə arasında genişləndirilmiş əməkdaşlığa ehtiyac duyulduğunu vurğuladılar; Keçmiş SSRİ Hökuməti tərəfindən keçmiş Gürcüstan SSR-dən sürgün edilmiş məcburi köçkünlərin deportasiyasının 75-ci ildönümünün anımı münasibətilə dərin hüzn ifadə etdilər və Gürcüstan hakimiyyətinin məcburi köçkünlərin geri qayıtması ilə əlaqədar atdığı addımları müsbət qiymətləndirdilər."

Təəssüf ki bəyanatda Axısqa sürgünü ilə bağlı ifadələr konkret şəkildə ifadə edilməmiş, mətndə "məcburi köçkün" ifadəsi isə sürgünə tabe tutulmuş insanların vəziyyətinin tarixi, hüquqi və siyasi baxımdan ifadə edilməsində yetərsiz qalmışdır.

Qeyd edək ki zirvə toplantılarının funksionallığının artması, bəyanatlarda qəbul edilən müddəaların tətbiq mexanizmlərinin işə salınması, qarşıya qoyulmuş işlərin həyata keçirilməsi məqsədilə cari fəaliyyət proqramının hazırlanması, bunun üçün müvafiq orqanların təsis edilməsi zəruridir. Bu formatı xarici işlər nazirləri zirvəsindən daha yüksək formata keçirmək üçtərəfli əməkdaşlıq baxımından məhsuldar bir mərhələyə keçməyə imkan verəcəkdir.

Azərbaycan və Gürcüstanın Türkiyə kimi regional bir güclə eyni və oxşar maraqlara sahib olması üçlü əməkdaşlıq formatının uğurla davam etdirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Lakin dini və milli (etnik) xarakterli bəzi məsələlərin həlli istiqamətində qarşılıqlı güzəşt və anlayışa əsaslanan əməli addımların atılmaması ölkələr arasında etimad problemini doğurmaqdadır. Bu problemlərin çözüm yollarının üçtərəfli əməkdaşlıq formatında müzakirə edilməsi məsələnin kompleks və səmərəli həlli baxımından ən münasib variantdır. Əks təqdirdə dini və milli (etnik) xarakterli problemlərin həlli sadəcə qeyri-müəyyən tarixə qədər təxirə salınacaq, üç ölkə arasındakı regional əməkdaşlıq səyləri formal xarakterli zirvə toplantılarından uzağa gedə bilməyəcək.

---

21 Bəyanat mətni üçün baxın: No:410/19, Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının Xarici İşlər nazirlərinin Səkkizinci Üçtərəfli Görüşü, Tbilisi Bəyanatı, 23.12.2019, http://mfa.gov.az/az/news/6510/pno41019-azerbaycan-respublikasi-guumlrcuumlstan-ve-tuumlrkiye-respublikasinin-xarici-isler-nazirlerinin-sekkizinci-uumlccedilterefli-goumlruumlsuuml-tbilisi-beyenatip

## Nəticə

Yeni dövlət quruculuğu prosesini yaşayan bütün ölkələrdə olduğu kimi, Gürcüstanda da milli və dini azlıqlar problemi çox həssas məsələdir. Gürcüstanda müsəlmanların hüquq və azadlıqları sahəsində yaşanan problemlərin həlli istiqamətində səmərəli addımların atılması vacib əhəmiyyət kəsb edir. Bu, sadəcə Gürcüstanın daxili siyasəti, dövlət-vətəndaş və din-dövlət münasibətləri baxımından deyil, eyni zamanda regional sülh və əməkdaşlıq baxımından önəmlidir. Çünki müsəlman azlıqların problemləri Gürcüstanın iki önəmli strateji müttəfiqi olan Türkiyə və Azərbaycanla bilavasitə əlaqədardır. Bununla yanaşı ölkədəki radikal cərəyanlar üzərində nəzarətin zəifləməsi ölkə və bölgə təhlükəsizliyi baxımından ciddi problemlər doğura bilər. Gürcüstan hakimiyyətinin və rəsmi qurumlarının ən çox şikayətçi olduqları "xarici ölkələrin dini təsiri" probleminin aradan qaldırılması ölkə müsəlmanları üçün dini kadrlar hazırlayan təhsil və təlim sisteminin qurulmasından, eyni zamanda din və ibadət azadlığının təmin edilməsi üçün lazımı şəraitin yaradılmasından asılıdır.

Regional rəqabət və ziddiyyətlərin tarixi keçmişi və bugünkü siyasi proseslər istənilən halda Türkiyə-Azərbaycan-Gürcüstan üçbucağında siyasi, iqtisadi, hərbi və mədəni əməkdaşlığın inkişaf etdirilməsinin vacib olduğunu göstərməkdədir. Rusiya-İran-Ermənistan əməkdaşlıq xətti, təəssüf ki, bölgə ölkələrinə qarşı əsassız iddia və ittihamlar, habelə ciddi təhdidlər ehtiva edir. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı, Ermənistanın Türkiyəyə qarşı ərazi, habelə saxta soyqırım iddiaları, Gürcüstanın ərazi bütünlüyünün təmin edilməməsi, Ermənistanın bu ölkəyə qarşı "erməni azlıq" məsələsini bir təzyiq vasitəsi kimi istifadə etməsi və s. problemlər Türkiyə-Azərbaycan-Gürcüstan əməkdaşlıq xəttinin daha da gücləndirilməsini tələb edir. Lakin Gürcüstanla milli və dini azlıqlarla bağlı həllini gözləyən problemlər bu ölkələr arasında müştərək maraqlara zərər verir. Hər üç dövlətin ortaq mənafeyini diqqətə alaraq regionda sülh, əmin-amanlıq, iqtisadi və sosial rifahın təmin edilməsi üçün üçtərəfli əməkdaşlığı lazımi səviyyədə inkişaf etdirmək bəhsi keçən problemlərin həllinin nə qədər zəruri olduğunu təsdiq edir. Bu problemlərin həlli istiqamətində əməli addımların atılması ölkələr və xalqlar arasında qarşılıqlı etimadsızlığa son verərək Türkiyə-Azərbaycan-Gürcüstan arasındakı əməkdaşlığın sözün həqiqi mənasında stratejik səviyyəyə yüksəldilməsinə fürsət verəcək.

**Hakim Qiymətləndirmə:** Xarici Müstəqil.
**Maraqların Çatışması:** Müəlliflər tərəfindən heç bir maraq çatışmazlığı elan edilməmişdir.
**Maliyyə Dəstəyi:** Müəlliflər bu araşdırmanın maddi dəstək almadığını elan etdilər.

**Hakem Değerlendirmesi:** Dış bağımsız.
**Çıkar Çatışması:** Yazarlar çıkar çatışması bildirmemiştir.
**Finansal Destek:** Yazarlar bu çalışma için finansal destek almadığını beyan etmiştir.

**Peer-review:** Externally peer-reviewed.
**Conflict of Interest:** The authors have no conflict of interest to declare.
**Grant Support:** The authors declared that this study has received no financial support.

## Ədəbiyyat siyahısı/Kaynakça/References


Asker Ali, Çoxtərəfli əməkdaşlıq prizmasından Türkiyənin Cənubi Qafqaz siyasəti, *Qafqazşünasların Birinci Beynəlxalq Forumu* [17-18 aprel 2017: Bakı], Azərbaycan MEA Qafqazşünaslıq İnstitutu, Bakı, 2017 (ss. 212-218).

Asker Ali, Kahraman Alter, Gürcistan'da Devletleşme, Kimlik İnşası ve Müslüman Topluluklar. İçinde: *Gürcistan'daki Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Editörler: Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), AVİM Yay., Terazi Yayıncılık, Ankara 2016 (ss. 23-47).

Asker Ali, Öğütcü Özge Nur. Borçalı Türkleri: İslam, Mezhep ve Din Temelli Sorunlar, *Gürcistan'da Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Ed. Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), Avrasya İncelemeleri Merkezi, Ankara 2016 (ss. 219-244).

Asker Ali. Gürcistan'da Din-Devlet İlişkilerinde Yeni Yasal Düzenleme, *21.Yüzyıl. Eylül*, 2011, No. 33 (ss. 66-72).

Aydıngün Ayşegül, Asker Ali, Üner Anıl. Pankisi Vadisi'nde Kistler: Selefilik, Gelenekçilik, Kimlik ve Siyaset, *Gürcistan'da Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Ed. Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), Avrasya İncelemeleri Merkezi, Ankara 2016 (ss. 347-370).

Bilestka Yuliya, Tuncel Turgut Kerem. Ahıska Türklerinin Gürcistan'a Geri Dönüşü ve 'Ermeni Faktörü', *Gürcistan'da Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Ed. Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), Avrasya İncelemeleri Merkezi, Ankara 2016 (ss. 319-346).

Çelikpala Mitat, Veliyev Cavid. Azerbaycan-Gürcistan-Türkiye. Bölgesel İşbirliğinin Başarılı Örneği, Polisy Brief, Center for International and European Studies (CIES) , Marty 2015.

Huseynov Rashad, History and Evolution of Islamic Institutions in Azerbaijan (XIX-XXI. Centuries). *The Caucasus - Globalization Journal of Social, Political and Economic Studies*. Vol. 8, Issue 1-2, 2014 (pp. 1-11).

İsgəndərov Anar, Mövlayi Adil, *Şeyxülislamın tarixi,* "Elm və təhsil", Bakı 2016.

Kahraman Alter, Katliarou Yury, Anaç Özge. Müslüman Acarlılar: İslam, Din Değiştirme ve Dini Haklar, *Gürcistan'da Müslüman Topluluklar: Azınlık Hakları, Kimlik, Siyaset* (Ed. Ayşegül Aydıngün, Ali Asker, Aslan Yavuz Şir), Avrasya İncelemeleri Merkezi, Ankara 2016 (ss.159-1992).

Məmmədov Ceyhun, Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri, *Dövlət və Din*, № 04 (51) iyul - avqust 2017, (ss. 6-15).

National Statistics Office of Georgia "2014 General Population Census-Population by Regions and Religion", http://www.census.ge/en/results/census (20.05.2016).

No:410/19, Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının Xarici İşlər nazirlərinin Səkkizinci Üçtərəfli Görüşü, Tbilisi Bəyənatı, 23.12.2019, http://mfa.gov.az/az/news/6510/pno41019-azerbaycan-respublikasi-guumlrcuumlstan-ve-tuumlrkiye-respublikasinin-xarici-isler-nazirlerinin-sekkizinci-uumlccedilterefli-goumlruumlsuuml-tbilisi-beyenatip [Baxıldığı tarix: 12.03.2020].

Prasad Conor. Georgia's Muslim Community: A Self-Fulfilling Prophecy? *ECMI Working Paper*. No. 58, 2012.

Митрополит Батумский Димитрий – о чуде в Аджарии, мусульманах и Патриархе Илии, http://www.pravmir.ru/mitropolit-batumskij-i-lazskij-dimitrij-adzhariya-vernulas-k-istokam/, 06.12.2012, [Baxıldığı tarix: 20.05.2017].